# *Konvensiyanın 5-ci maddəsi ilə bağlı məsələlər*

**1-ci məsələ**

Cingiz Əliyev barəsində rayon məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçildi. O, bir necə qətlin təşkili və icrasında təqsirləndirilirdi. Qətimkan tədbiri seçilən zaman məhkəmə iclasında onun iştirakı təmin edilmədi. Hakim bunu onunla əsaslandırdı ki, C. Əliyev olduqca təhlükəli şəxs olduğundan, o, məhkəmə iclasına gətirilməsi zamanı və bilavasitə iclas zamanı qaçmağa cəhd göstərə, başqalarına xəsarət yetirə bilərdi. Məhkəmə iclasında iştirak etmiş müdafiəçi həmin qərardan apellyasiya şikayəti verir. Şikayət təmin edilmədi. C. Əliyevin Avropa Məhkəməsinə verdiyi şikayətdə məhz onun məhkəmə iclasında iştirakının təmin edilməməsi Konvensiyanın 5-ci maddəsinin pozuntusu kimi qiymətləndirilib.
**Vəziyyəti təhlil edin.**

**2-ci məsələ**

Fərid Ələsgərov barəsində həbs qətimkan tədbiri seçilib. Bu barədə qərarda yalnız əməlin ictimai təhlükəli olmasına, ağır cinayətlər kateqoriyasına aid olmasına istinad edilir. F. Ələsgərov ölkədaxili səmərəli hüquqi vasitələrdən istifadə etdikdən sonra Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət verir. Həmin şikayətdə təqsirləndirildiyi əməli törətməsini etiraf etsə də, 5-ci maddənin pozulmasını göstərir.
**Vəziyyəti təhlil edin.**

**3-cü məsələ**

Pərviz Əsədov qərəzli xuliqanlıq törədilməsində təqsirləndirilir. Rayon məhkəməsi onun barəsində həbs qətimkan tədbiri seçib. Orada göstərilir ki, onun həbsi üçün kifayət qədər əsas vardır, belə ki, onun qərəzli xuliqanlıq törətməsi, yəni gecədən keçmiş yaşayış binasının həyətində avtomobili əzməsi və bu zaman söyüş söyməsi faktı Həsən Piriyevin ifadələri ilə təsdiqlənir. H. Piriyevin ifadələrində göstərilir ki, o, səs-küy eşidib, həyətə çıxanda görüb ki, bir nəfər (Əsədov) onun maşının yaxınlığında dayanaraq söyüş söyür. Yaxınlaşdıqda Piriyev maşının sol tərəfdəki qapısının ciddi zədələndiyini görüb və dərhal polisi dəvət edib. Maşının məhz Əsədov tərəfindən əzildiyi başqa heç bir sübutla təsdiqlənmir.
Ölkədaxili hüquqi vasitələrdən istifadə etdikdən sonra Əsədov Avropa Məhkəməsinə müraciət edib.
**Şikayət Konvensiyanın 5-ci maddəsinin pozulmasına aid hissədə necə əsaslandırıla bilər?**

**4-cü məsələ**

16 yaşlı Fariz Cinayət Məcəlləsinin 177.2.3-cü maddəsi ilə (yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla oğurluq) təqsirləndirilir. Onun cəmiyyətdə çətin tərbiyə olunan yeniyetmə kimi tanınmasını, təhqiqat orqanından xeyli müddət gizlənməsini, törətdiyindən peşman olmamasını nəzərə alaraq, həmçinin gələcəkdə onun tərəfindən yeni ictimai təhlükəli əməllərin törədilməsinin qarşısını almaq məqsədilə Fariz barəsində həbs qətimkan tədbiri seçilib.
**Farizin Avropa Məhkəməsinə Konvensiyanın 5-ci maddəsinin pozuntusu ilə bağlı müraciət etməyə əsasları varmı?**